**UOT 398.223**

# QIRX BATIR HAQQINDA DASTAN SİLSİLƏSİNDƏ "ŞORA BATIR": EPİKLİK VƏ TARİXİLİK

**Qumru ŞƏHRİYAR***

Məqalə redaksiyaya daxil olmuşdur: 25 fevral 2025; çapa qəbul edilmişdir: 15 aprel 2025; online-da çap edilmişdir: 15 may 2025.

Received: 25th of February, 2025; accepted: 15th of April, 2025; published online: 15th of May, 2025.

**Açar sözlər:** *silsilə, Qırx batır, dastan, Şora batır, epik mətn, şəcərə*

## Giriş

Qazax epik ənənəsi üçün xarakterik olan Qırx batır haqqında dastan silsiləsi daxilində dörd silsiləni ehtiva edir: 1. "Anşıbay batır və onun nəsli"; 2. "Karadön batır və onun nəsli"; 3. "Kıdırbay və onun nəsli"; 4. "Müxtəlif batırlar haqqında dastanlar" və "Şora batır" dastanı "Karadön batır və onun nəsli" silsiləsinə daxil olan doqquz dastanın sonuncusudur.

"Şora batır" dastanın Krım, Kazan və Dobruca tatarlarına, qazax, qaraqalpaq, qırğız və noqaylara aid çoxlu sayda variantları mövcuddur. Dastanın tədqiqat tarixi XIX əsrdən başlayır. Dastan haqqında ilk elmi araşdırmalar Ç.Vəlixanovun, P.Falevin, S.Seyfullinin, X.Cumaliyevin, S.Mukanovun, B.Kenjebayevin, M.Auezovun, R.Berdibayevin, A.Ospanulının, T.Tokbergenovun və b. adı ilə bağlıdır. Dastanın nağıllaşmış variantını ilk dəfə olaraq 1857-ci ildə Polşanın və Belorusiyanın siyasi xadimi, Qazaxıstan çöllərinə sürgün edilmiş Litvin ləqəbli naşir B.Zaleski Mirzakaya adlı bir söyləyicinin dilindən yazıya alaraq polyak dilində nəşr etmişdir.

## 1. "Şora Batır" dastanın süjet xətti

Qırx batır haqqında dastan silsiləsinə daxil olan "Şora batır" dastanının onlarla variantı mövcuddur ki, biz onlardan yalnız üç qazax variantını təqdim edirik:

*1. Molla Musa variantı* (bu variant yarımçıqdır) – Noqayların birliyinin pozulduğu bir zamanda Kazan şəhərində qırx min evli Tama uruğunda Narikbay adlı zəngin bir bəy var idi. Narikbayın övladı olmurdu. Onun Esim adlı kiçik qardaşı və böyük bir ilxısı var idi. Günlərin bir günü övladsızlıq dərdindən ürəyi sıxılan Narikbay ilxının arasına girib gəzməyə başlayır. Birdən dalğalı dənizi iki hissəyə bölərək, sudan çıxıb onun atlarının arasına qarışan Şubar atı görür. Bu atı minməsi üçün Tanrıdan övlad istəyir. Qardaşı Esim elçi gəlib övladı olmadığını, o atın qardaşından başqa heç kimə qalmayacağını deyib atı Esimə verməsi üçün təkid edir. Narikbay bundan bərk inciyir və arvadı Kulkanısla birlikdə öz elini tərk edir. Onun arxasınca da qırx ailə yollanır. Doqquz ay yol gedib Noqay-türkmən elinə yetişirlər. Noqay-türkmən elinin xanı Karahan Narikbayı taxta oturdur. Bir müddət şad-xürrəm yaşadıqdan sonra Narikbayla Tama uluğundan gələn Elibiy onun Şubar atına göz qoyur. "Övladı olmadığı üçün mal-mülk nəyinə lazımdır" deyib Narikbayın xətrinə dəyir. O da arvadı Kulkanısla birlikdə bütün müqəddəs ziyarətgahları gəzib övlad

* *filologiya üzrə fəlsəfə doktoru, AMEA Folklor İnstitutu*
*e-mail:* nevayi-qumru@rambler.ru
*ORCİD:* https://orcid.org/0000-0001-6130-7063
**https://doi.org/10.30546/25194011.2025.14.2.1020**

istəmək qərarına gəlir. Hər ziyarətgahda göz yaşı töküb Allahdan övlad istəyirlər. Bir gün Kulkanıs çayın kənarında əyilib su içmək istəyəndə ağ tikanın onun ətəyinə yapışdığını görür. Narikbaya burada bir gecə qalmaq istədiyini deyir. Tikan Kulkanısın ətəyini buraxmır. O da burada qurban kəsib gecələyir. Kulkanıs yuxusunda Babay Tüktinin ona tanrıdan oğul payı gətirdiyini görür. Durub dua edə-edə qırx evli Tamaya qayıdırlar. Hamilə ikən Kulkanıs Narikbaydan aslan ürəyi istəyir. Narikbay aslan öldürüb ürəyini Kulkanısa gətirir. Kulkanıs isə onu qanlı-qanlı yeyir. Qısa müddətdən sonra bir oğlan doğur. Babay Tükti dilənçi libasında boz eşşəyin belində gəlib uşağa Er Şora adını qoyub gedir. Er Şora böyüyür, Şubar atı minir. Elibiy yenə də Şubar atı ondan istəyir. Bunu eşidən Şora Elibiylə təkbətək döyüşmək qərarına gəlir. Ağır döyüşdən sonra Şora qılıncı çəkib onun başını kəsir. Sonra Esim xanı görmək üçün Kazan şəhərinə gəlir. Esim Şubar atı görən kimi Şoranı tanıyır, onu bağrına basıb birlikdə qardaşı Narikbayın hüzuruna gəlirlər. Tama yurdu bayram edir. Bir müddətdən sonra Esim ilə Şora kalmıkların üzərinə yürüşə çıxırlar. Oradan zəfərlə geri dönən Şora türkmən elindən qırx Tama evini yurdlarına geri çağırır [6, s. 25-190].

2. *Muhambetnecip Aliakbaruli variantı* – Narik batır yurdunu tərk edib Akşa xanın yanında yaşamağa başlayır. Bir gün Akşa xan uzun bir səyahətə çıxmalı olur. Onun çox sürətli qaçan bir tazısı var idi, onu Narik batıra tapşırır. Bir müddətdən sonra nökərlərdən biri dovşan qaçdığını görüb Narik batırdan xəbərsiz tazını onun arxasınca buraxır. Narik atını minib çöllükdə tazını axtarmağa başlayır. Orada bir hin tapır, düşünür ki, yəqin tazı ilə dovşan hində olar. İçəri girəndə orada çoxlu qızıl görür. Bir hissəsini kisəyə yığıb aparıb meşənin ortasında gizlədir. Akşa xan gələndən sonra olanları ona danışır, amma qızıl haqqında heç nə demir. Günlər keçdikcə Narik batır saralıb-solmağa başlayır. Akşa xan nə qədər təbib tökürsə, dərdini bilən olmur. O zaman sınşıları (falçı) çağırır. Sınşılar onun bir kisə qızıl gizlətdiyini deyirlər. Narik hər şeyi açıb danışır. Xan gedib hindəki qızılların hamısını yığıb gətirir və Nariklə dostluğunu daha da möhkəmləndirir. Onu Mendisuluv adlı gözəl bir qızla evləndirir. Bir müddət xoşbəxt yaşadıqdan sonra xanın Mendisuluva gözü düşür. “Bu batırı öldürün” yazılan məktubu Narik batıra verib onu Şağım Kerey xanın yanına göndərir. Bundan şübhələnən Narik batır məktubu açıb oxuyur və heç yerə getmədən öz evində gizlənir. Gecənin yarısı Akşa xan Mendisuluvun yanına gəlib onunla qalmaq istədiyini deyəndə Mendisuluv ağlayır. Bunu eşidən Narik batır qılıncını çəkib Akşa xanın başını kəsir. Mendisuluvu da götürüb Şağım Kerey xanın torpaqlarına gəlir və orada yaşamağa başlayır. Günlərin bir günü gecə qaranlığında evin ortasında bir işıq peyda olur və ekiz uşaqlar – Şora və Şirin doğulur. Şora on yaşına çatanda Akşa xanın adamları onun Aktanker adlı atını zorla apardıqları üçün Şora təkbaşına Akşa xanın üzərinə hücum edib atını geri gətirir. Şoranın Kulınşak batır adlı bir dostu var idi. Bir gün Kulınşak batır Şoraya o olmayanda onun evindən bir nəfərin çıxdığını deyir. Buna qəzəblənən Şora batır qılıncını çəkib arvadının üstünə hücum edəndə bacısı Şirin ağlaya-ağlaya onun qarşısını kəsib həmin adamın özü olduğunu deyir. “Qılınc qından çıxıbsa, mütləq nəsə kəsməlidir” deyən Şora atı Aktankeri doğrayıb geri dönür. Beləcə, hər kəs öz muradına yetir [4, s.191-207].

3. *Murin Sengirbekuli variantı* – Kalmıkların Aktaş adlı xanı Şoranın Taspaker adlı atını gətirmək üçün öz adamlarını göndərir. Narik qoca olduğu üçün atı qoruya bilmir. Şora xanın adamlarını Balbulak çayının yaxınlığında ələ keçirir, əl-qollarını bağlayıb atı ilə birlikdə yurduna gətirir. Narik adamları buraxıb kalmık xanı Aktaşa xəbər göndərərək, Şoranın səkkiz gün içərisində onun üzərinə hücum edəcəyini bildirir. Aktaş qorxaraq mal-mülkünün arasında ən dəyərli olanını götürüb yurdu tərk edir. Səkkiz gün sonra Şora tərk edilmiş kalmık elinə gəlir. Qənimətləri kasıblara paylayıb geri dönür. Amma onun niyyəti Aktaş xanı öldürmək idi. O, dostu Kulınşakla birlikdə yola çıxırlar. İki ay sonra Aktaş xanın yerini-yurdunu tapırlar. Onlar Aktaş xanın iki min nəfərlik ordusu ilə qanlı döyüşə girir. Bir gün, bir gecə döyüşəndən sonra Kulınşak Aktaş xanın başını kəsir. Sağ qalan

əsgərləri və qənimətləri götürüb Noqay elinə geri dönürlər. Kulınşakla Şora Kazana yola düşürlər. Adilşe xan məclis qurub Şoranı qızı ilə evləndirir. Bir müddət sonra Şora Kulınşakla birlikdə kalmık elinə səfərə çıxırlar. Kalmıklar da Noqay elini ələ keçirmək üçün yola çıxmışdılar. Kalmık elinə yarım günlük məsafədə iki dost iki min nəfərlik ordu ilə qarşılaşır. Qanlı döyüş başlayır. İyirmi günlük döyüşdən sonra noqaylar qənimətləri və əsgərləri ələ keçirib geri dönürlər. İki ildən sonra onlar yenə kalmıklar üzərinə səfərə çıxırlar. Kulınşakın istəyi ilə onlar yolda atdan enib bir az dincəlirlər. Bu zaman Şora onu qoruyan qoruyucu ərvahının olduğunu söyləyir. Ona görə də onun dincəlməyə ehtiyacının olmadığını deyir. Kulınşak ərvahı görmək istədiyini bildirir. Əgər onun ərvahı kimsə görsə, Şora öləcəyini deyir. Kulınşak israr etdiyi üçün Şora sağ tərəfindən bir əjdahanın peyda olacağını, onu udmaq istəyəcəyini, amma əlini tərpətsə, yaxud silah çıxarsa, Şora özünün qeybə çəkiləcəyini deyir. Kulınşak razılaşır, qəfildən qəribə səslə birlikdə bir əjdaha peyda olur. Ağzını açıb Kulınşakı udmaq istəyəndə o, qeyri-ixtiyari qılıncına əl atır. Əjdaha qeybə çəkilir. Kulınşak Şoranın yox olduğunu görür. Kulınşak üzüntüdən səfəri yarımçıq qoyub geri dönür. Kulınşak Şoranın qılıncını və silah-sursatını götürüb arvadı Hancanın yanına gəlir. Hancan bundan sonra onun silah-sursatından istifadə edən kimsəsinin olmadığı üçün hamısını yandırır. Atı Taspakeri isə kəsib Şoraya ehsan verir [25, s.297-323; 7, s.668-743].

## 2. "Şora Batır" dastanında epiklik və tarixilik

Dastan qəhrəmanı Şora batır tarixi şəxsiyyətdir. XVI əsrin əvvəllərində yaşadığı güman edilir. Tarixi mənbələrdə Şora Narıkov adı ilə tanınır. O dövrə məxsus olan bütün tarixi mənbələrdə, əlyazmalarda onun adına rast gəlinir. Rusiya İmperiyasının Kostroma qubernatorluğunun bölmələrindən biri olan Qaliçsk qəzasının tarixi haqqında arxivlərdə: "...tatarlar Volqadan Unja və Viqa çayları boyunca Çuxlomaya, sonra Qaliçskə gəldilər. 1540-cı ildə tatarlar basqını təkrarladılar. Əlyazmalarda "Çura Narıkovun böyük bir ordu ilə gəldiyi və bu şəhəri aldı"ğı qeyd olunur. Çura Narıkov Kazan tatar komandiri idi" [26] deyə yazılır. Kazan tarixi ilə bağlı mənbələrdə də onun haqqında "Kazan hökmdarı, bütün kazanlılar üzərində hakimiyyətə malik olan böyük knyaz Çura Narıkoviç" [14, s.131] deyərək bəhs edilir.

Salnamələrdə onun haqqında yazırlar ki, "böyük knyaza (İvan Qroznıy nəzərdə tutulur – Q.Ş.) xidmət etməyə hazır olan Kazan knyazları Kuluş knyaz, Tereul, Burnaş və Çura Narıkovun qardaşları da daxil olmaqla 76 nəfər var idi. Çar Kazanı məğlub etdi. O, knyaz Çura Narıkovu, Baubek knyaz, Kadış knyaz və başqalarını məğlub edərək Krım knyazları ilə birlikdə Kazanı idarə etməyə başladı" [20, s.149]. Tatar tarixçisi H.Atlasi yazır ki, "1526-cı ildə Səfər Gireyin adından Moskvaya Kazi bəy, Çora bəy və Davul baxşı elçi sifəti ilə gəldilər. Bu dəfə onlar Moskvada V Karlın elçisi Gerberşteynlə görüşdülər" [9, s.298].

Çura və ya Şora Narıkovun adı tarix səhnəsində sonuncu dəfə 1546-cı il sentyabrın 20-də Nikonov salnaməsində çəkilir və elə bu tarixi də onun öldüyü il hesab edirlər. Bu məlumatları Aleksandro-Nevskiy salnaməsi də eynilə təsdiqləyir [19, s.146-148].

Dastan qəhrəmanı Şora batırın prototipi olan Şora Narıkovun həyatı haqqında mənbələrdə heç bir məlumat yoxdur. Hətta epik mətndə də uşaqlığı və yeniyetməliyi haqqında ətraflı məlumat verilmir. Amma ölümü haqqında istər epik mətnlərdə, istərsə də tarixi mənbələrdə müxtəlif ziddiyyətli fərziyyələr mövcuddur. Türkiyəli alim D.Kaya "Çora batır dastanı" adlı məqaləsində yazır ki, o: "Kazan döyüşləri əsnasında Moskvada evləndiyi rus qızından olan oğlu tərəfindən öldürülmüşdür. Başqa bir şaiyəyə əsasən, 1555-ci ildə Kazanı zəbt edən ruslar Çora batırı ələ keçirmiş, silahları və zirehləri ilə birlikdə Kaban gölünə (Kazanda yerləşən üç hissədən ibarət göllər sistemi – Q.Ş.) ataraq öldürmüşdür"

[3, s. 555]. "Kazan tarixi" isə yazır ki, Səfa-Girey xan Kazana gələndə Şora batır Şah-Əli xanın oradan qaçmasına yardım edir. Kazanı tərk edərkən "arvadları və uşaqları, silahlanmış 500 qulluqçusu, onunla birlikdə 1000 nəfər döyüşçü və ona qoşulanlar bütün sərvətləri ilə, arvadları və uşaqları ilə birlikdə knyazlar" [16, s.280] arxalarınca onları təqib etmək üçün göndərilən ordu tərəfindən darmadağın edildi. Üstün qüvvələr Çoranın dəstəsini məğlub etdi və hamını öldürdü: "Və onlar cəsur komandirləri Çora Narıkoviçi, oğlunu və bütün qulluqçularını öldürdülər..." [16, s.282]. Başqa mənbələr isə göstərir ki, Çora Narıkov Kazan əhalisini Şah-Əlinin edam olunması üçün təhrik edir. Bu missiyanı öz üzərinə götürərək o, Şah-Əlini Kazandan çıxarıb Volqanın sahilinə gətirir və oradan qaçmasına yardım edir. Çora bunu İvan Qroznının qəzəbindən qurtulmaq üçün edir. O, Şah-Əlini yola salanda çayın o tərəfində Çoranı və ona qoşulub gələn dostlarını gözləməsini tapşırsa da, arxalarınca gələn ordunu görən Şah-Əli onları gözləmədən qaçır [14, s.44-45]. Elə bu səbəbə görə də, Səfa-Girey üçüncü dəfə hakimiyyətə gələndə ona xəyanət edənləri bağışlamadı və onları edam etdirdi. Çora batır da Şah-Əlinin qaçmasına yardım etməklə Səfa-Gireyə xəyanət edənlər sırasına daxil olmuşdu. Bəzən Çoranın elə həmin "döyüşdə dostları ilə birlikdə öldürüldü"yü [14, s.45] də yazılır.

Beləliklə, Şora batırın ölümü ilə bağlı məlumatları bir neçə qrupda cəmləşdirmək olar:

1. Şora batır və tərəfdaşları 1546-cı ildə həyatını xilas etdikləri Şah-Əlinin onları gözləmədən qaçdığına görə arxasınca düşən kazanlıların hücumuna məruz qalaraq öldürülmüşdür.
2. O, 1546-cı ildə Səfa-Girey xanın əmri ilə öldürülmüşdür.
3. 1552-ci ildə İvan Qroznının qoşunu ilə girdiyi qanlı döyüşdə ağır yaralanaraq dünyasını dəyişmişdir.
4. 1555-ci ildə Kazanı zəbt edən ruslar tərəfindən öldürülmüşdür.

Bu versiyaları ayrı-ayrılıqda təhlil edərkən natamam yaxud heç bir əsası olmayan fikirlər ortaya çıxır. Belə ki, yuxarıda da qeyd etdiyimiz kimi, 1546-cı ildən sonra Şora batırın adı heç bir mənbədə çəkilmir. O dövr tarixin elə bir qarmaqarışıq zamanı idi ki, Şora Narıkov kimi nüfuzlu bir şəxs fəaliyyətsiz dayanaraq tarix səhnəsindən çıxa bilməzdi. Həmin illərdə Krım xanlığının nümayəndəsi Sahib Girey Kazan xanlığında hakimiyyətə gəldikdən sonra ruslarla toqquşmadan çəkinərək Türkiyənin vassallığını qəbul etdi. Rusiya bu razılaşmaya qarşı çıxdı və Sahib Gireyə qarşı müharibəyə başladı. Sonuncu dəfə belə ağır bir vəziyyətə tab gətirə bilməyəcəyindən çəkinərək Kazanı tərk etdi. Krıma gedərək, hakimiyyəti qardaşı oğlu Səfa Gireyə verdi. Ondan sonra isə xanlığı Krımdan gəlmiş qoşun başçısı Kuçak ələ keçirdi və hakimiyyətə Səfa Gireyin kiçik yaşlı oğlu Uyatmışı təyin etdi. Əslində isə hakimiyyət Səfa Gireyin arvadı Soyom-Bikə xatun tərəfindən idarə olunurdu.

Bu illərdə İvan Qroznı Volqaboyunu işğal etmək istəyirdi. O, iki dəfə (1548 və 1550-ci illərdə) Kazan xanlığına hərbi yürüş edib, lakin hər dəfə də uğursuzluğa düçar olub. 1552-ci ilin avqustunda yenidən Kazana hərbi səfər təşkil etdi və 1552-ci il oktyabrın 2-də şəhəri ələ keçirdi. Lakin ruslara qarşı mübarizə uzun müddət davam etdi.

Krımda və Kazanda baş vermiş bu qədər hadisələr arasında Şora Narıkovun adı bir dəfə də olsun çəkilmir. Amma Nikonov [20] və Aleksandro-Nevskiy [19] salnamələri 1552-ci ildə "Çura Narıkovun qardaşları da daxil olmaqla 76 nəfər"in İvan Qroznının yanına getdiyini yazır. Amma sonradan onun "knyaz Çura Narıkovu... və başqalarını məğlub edərək Krım knyazları ilə birlikdə Kazanı idarə etməyə başladı"ğı [20, s.149] deyilir. Bu ziddiyyətli fikrin, zənnimizcə, salnaməçinin səhvi olması və ya diqqətsizliyi ehtimalını gözardı etmək olmaz. Çünki ondan bir qədər yuxarıda Çura Narıkovun qardaşlarından bəhs edilir. Mənbələr yazır ki, onun İslam və Alikey adlı iki qardaşı 1546-cı ildə "Səfa Gireyin əlindən qaçıb noqaylara sığınıb. Bu iki mirzə 1552-ci il hadisələrində də iştirak

ediblər" [13, s.12]. Ruslarla çəkişmələr əsnasında İslam Mirzə və Alikey Mirzə Kazan şəhərinə daxil oldular və arxadan qapıları bağlayıb xalqı ruslara müqavimət göstərməyə çağırdılar. Nəticədə "Kazanın açarlarının dinc yolla ruslara verilməsi planı tam iflasa uğradı. 1552-ci il martın 9-da baş vermiş dövlət çevrilişindən sonra İslam Mirzə Volqanın sağ sahilində ruslarla döyüşdə həlak oldu. Alikeyə gəlincə isə o, Yadgar xanın dövründə Kazanda hökumətin tərkibində idi" [22, s.134]. Narıkovlar haqqında 1552-ci ildən sonra heç bir rəsmi mənbədə məlumata rast gəlmirik. Beləliklə, "Alikey Mirzə Narıkov 1552-ci ildə IV İvanın xidmətinə keçmiş və Aleksey adı almışdır" [22, s.134]. Başqa mənbələr "Narıkov soyadı da, görünür, elə məhz buradan yayılmışdır" [21, s. 135] deyə yazırlar. Qeyd edək ki, həm İslam Mirzənin, həm də Alıkeyin adları 1546-cı ildə Şora Narıkovun ölümündən sonra mənbələrdə görünməyə başlayır və 1552-ci ilə qədərki yazılarda onların adlarına rast gəlinir.

Şora Narıkovun tarixi sənədlər arasında doğumu, gəncliyi və yeniyetməliyi haqqında heç bir məlumat yoxdur. Dastanda da Şora batırın uşaqlığı və gəncliyi haqqında informasiya yoxdur. Yalnız Krım, Kazan və noqay variantlarında yeni doğulan körpənin (Çoranın) anasının döşünü əmməsi və bir yaşında danışmağa başlaması və evindən uzaqlarda yaşaması göstərilir [18]. Epik mətn konkret tarix göstərə bilməsə də, variantlar onun ölümünü müxtəlif şəkildə təsvir edir. Bir sıra variantlarda qəhrəmanın ölümü, ümumiyyətlə, təsvir olunmayıb (*qazax variantı*) [4], bəzilərində o, qeybə çəkilib (*qazax variantı*) [7; 25]. Krım, Kazan və noqay variantlarında isə İdil sularında yox olur [12]. Dastanın Kazan tatarlarına aid variantında qəhrəman ruslarla savaşır. "Ruslar Çora batıra qalib gələ bilmədiklərini görəndə onun yanına çox gözəl bir rus qızını göndərirlər. Rus qızı Çora batırdan hamilə qalan kimi geri qayıdır və dünyaya bir uşaq gətirir. Uşaq həddi-buluğa çatanda tatarların üstünə hücum edir. Çora batır uzaqdan ordunun başında öz oğlunu görən kimi onu tanıyır və döyüşə girmədən atı ilə birlikdə çaya girir və bir daha çıxmır" [8, s.105-106].

Şora batırın tarix səhnəsindən salnamələrdə göstərildiyi kimi "yoxa çıxması" epik mətndə bir çox hallarda olduğu kimi təkrarlanır. Yuxarıda nümunə gətirdiyimiz Kazan tatarlarına ("atı ilə birlikdə çaya girir və bir daha çıxmır") və qazaxlara ("Kulınşak arxasına dönüb Şoranı axtarır, amma yer yarılıb Şoranı udmuşdu") aid variantlar da bu fikrimizi təsdiqləyir.

Bilindiyi kimi, "Şora batır" dastanının süjet xətti Qırx batır haqqında dastanlarda, məsələn, "Edigey", "Orak-Mamay", "Karasay-Kazı" və digərlərində olduğu kimi tarixi hadisələrlə uzlaşır. Ümumiyyətlə, tədqiqatçılar belə hesab edirlər ki, bu dastanların mətni "orta əsrlərin (IX-XIV əsrlər) tarixi hadisələrinə əsaslanır. Nağılların qəhrəmanları – batırlar, bir qayda olaraq, Qızıl və Noqay Ordalarının tarixində öz prototiplərinə malikdirlər: Mamay, Orak, Toxtamış, Şora, Edige və s." [23, s. 35]. Epik mətnin salnamələrdən əvvəl, yoxsa salnamələrin epik mətndən əvvəl yazıldığını müəyyən etmək çətindir. Çünki hər iki mənbə təxminən biri digərinin, demək olar ki, təkrarıdır.

Şora batırın şəcərəsini öyrənən alimlər tarixdə iki fərqli Çora olduğunu iddia edirlər. "Kara Kuca şəcərəsi"nə əsaslanan variantda Çora batırın atası Çura biy olaraq göstərilir. Qeyd edək ki, bu "Şəcərə"ni M.İ.Axmetcanov Tatarıstanın Zelenodolski rayonunun Böyük Karaudja kəndində toplamışdır. Rəvayətdə deyilir ki, əslən Kazanın Karavay rayonundan olan Kara biyin oğlu Karaudja (Kara Kuca) adlı bir adam öz doğma yerlərini tərk edərək özünə Karaudja adlı yurd salır. Yaxınlıqdan keçən bir yolçu ona dəstəmaz almağa su vermədikləri üçün onları qarğıyır. Bundan qorxan Karaudja üç oğlunun hər birinə bir ox verir və oxun sancıldığı yerdə özlərinə yurd salmağı tapşırır. Karaudjanın böyük oğlunun atdığı oxun düşdüyü ərazi Kara Tömen adlanır. İkinci oğlunun atdığı ox Böyük Karaudja adlanan kəndin ortasındakı bu gün Çura biy adlanan dəliyə sancılır.

Karaudja oğlu Çura biy orada məskən salır. Üçüncü oğlunun atdığı oxun sancıldığı yer isə Külbaş adlanır. Sonradan Çura biy Moskva çarı tərəfindən Rusiya hökumətinə qarşı xəyanətdə ittiham edilərək edam edilir. Onun oğlu Çora batır isə İvan Qroznının ordusu ilə döyüşərkən həlak olur. Çora batırın oğlu Rismət, Rismətin oğlu Qədirmət, Qədirmətin oğlu Qızzətulladır [11, s.34]. D.M.İshakov Çura biyin ölümünü aşağıdakı kimi təsvir edir: "Kazan xanına xəyanət etdiyinə görə xan "payına düşəni al, yoxsa sənə hər şey azlıq edir" deyərək Çura biyin boğazına əridilmiş gümüş tökür" [15, s.47].

M.İ.Axmetcanov eyni bölgədən məzmun etibarilə bir-birinə yaxın olan ikinci bir rəvayət [10, s. 3-4] də toplamışdır ki, orada Çura biy Karaudjanın böyük oğludur və o, atası və qardaşları ilə birlikdə yaddellilərin hücumlarından qorunmaq üçün yaşadıqları bugünkü Yaki kəndinin (Tatarıstanın Zelenodolski rayonu) yaxınlığında istehkamlar inşa ediblər.

H.Ortekin V.Radlova istinadən yazır ki, Çora Mirzənin Çora batırla heç bir ortaq nöqtəsi yoxdur, "Çora batır bəyliklə, xanlıqla əlaqəsi olmayan, xalqın içərisindən çıxan" [5, 3-4] bir qəhrəmandır. F.Türkmən də bu fikirləri təsdiq edərək "tarixdəki Çora batırla xalqın nifrətini qazanan Çora Mirzənin eyni adam olmadığını" [8, s. 108] yazır. A.İnan isə "tarixdə yaşayan Çora Narıkovla dastan qəhrəmanı Çora batırın arasında ziddiyyətlərin olduğunu, Çora Narıkovun Şah-Əli ilə bağlı olduğunu, Səfa Girey tərəfindən edam edilən bir şəxsiyyət olduğunu" [2, s. 77] bildirir.

"Şora batır" dastanının Dobruca tatarlarına aid variantında da qəhrəman özünü təqdim edərkən "mən Çura oğlu Çorayam" [24, s. 47] deyir. Amma ondan bir qədər əvvəl qəhrəman "soyum ir-Narıka bağlı"dır ifadəsini işlədir. Bundan başqa, qeyd edək ki, Dobruca tatarları arasında "Qoca Narik ilə Çora batır" adlı variant da mövcuddur.

Beləcə, mənbələrdən Çura biy ilə Çora batırın eyni adam olub-olmadığını müəyyənləşdirmək çətindir. Lakin L.X.Muxametzyanova özünün "Çura Narıkov – Kazan xanlığının siyasi xadimi" [17] adlı məqaləsində bu şəxslərin fərqli adam olduqlarını sübut etməyə çalışır. Biz belə bir hadisəylə "Edigey" dastanında da rastlaşırıq. Orada da bəzi müəlliflər Edigeyi özündən bir əsr əvvəl yaşamış Noqay xanla eyniləşdirirlər [1, s. 39-40]. Amma Edigeyin də, Şora batırın da tarixi şəxsiyyət olması bir faktdır. Orta əsrlərin siyasi səhnəsində hər iki qəhrəmanın rolu danılmazdır.

Qırx Batır haqqında dastan silsiləsi Şora batırın atasının Narık bəy olduğunu göstərir. Epik mətn Narık bəyin övladı olması üçün verdiyi mücadiləni, sonra övladına arxalanaraq döyüşlərə girməsi və s. açıq-aydın şəkildə, hətta bəzi məqamlarda təfərrüatı ilə təsvir edir.

Şora Batırın Tama boyuna mənsub olması onun Narik batırın oğlu olması faktını artıq təsdiqləmiş olur. Ona görə ki, silsilənin zəncirvari həlqəsi Tama batır – Tana batır – Narik batır – Şora batır olaraq dövrlənir. Silsilə isə ona görə Şora batırla sona çatır ki, qəhrəmanın övladı olmur. Tarixə aid olan geneoloji göstəricilərdə də Şora Narıkovun övladlarının adı çəkilmir. Epik mətnlər isə onun övladının olması xəbərini səhih də olsa, verir, amma həmin övladın adı, gördüyü işləri, atası ilə dost və ya düşmən olması haqqında heç bir informasiya yoxdur.

**Nəticə**

Qırx batır haqqında dastan silsiləsi qazax ədəbi mühiti üçün ənənəvi hadisədir desək, yanılmarıq. Bu silsilənin içərisində cəmləşdirdiyi dörd müxtəlif silsilənin ikincisi olan "Karadön batır və onun nəsli"nə aid olan sonuncu dastan, qeyd etdiyimiz kimi, "Şora batır"dır.

"Şora batır" dastanının zəngin tədqiqat tarixi olmasına baxmayaraq, onun orta əsrlərdə tarix səhnəsində aktiv şəkildə iştirak edən Şora Narıkovla eyni adam olub-olmamasını müəyyənləşdirə bilən əsaslı dəlillər yoxdur. Biz yalnız onu deyə bilərik ki, tarixi

şəxsiyyət olan Şora Narıkovun həyatının bəzi epizodik məqamları dastanda epik qəhrəman olan Şora batırın dilindən ifadə olunur.

## ƏDƏBİYYAT


1. Şəhriyar Q. Türk xalqlarının dastan yaradıcılığında "Edigey". Bakı: Elm və təhsil, 2024, 256 s.
2. İnan A. Orta Türk Destanları ve Kırım I. Makaleler ve İncelemeler. I. Cilt. Ankara: Türk Tarih Kurumu Yayınları, 1998, s. 76-85.
3. Kaya D. Çora Batır Destanı // Türk Kültürü. 2016, S. 425, 1998. s. 555-559.
4. Kıssa-i Narik oğlu Şora Batur // Kazak Destanları – V. Şora batır. Hazırlayan: B.Korgonbekov. Türkiye Türkcesine aktaran: İ.Turan Kallimci. Ankara: Türk Dil Kurumu Yayınları, 2010, s. 191-207.
5. Ortekin H. Çora batır Destanı. İstanbul: İstanbul Eminönü Halkevi Dil, Tarih ve Edebiyat Şubesi Neşriyatı. 1939, 23 s.
6. Şora Batır // Kazak Destanları – V. Şora batır. / Hazırlayan: B.Korgonbekov. Türkiye Türkcesine aktaran: İ.Turan Kallimci. Ankara: Türk Dil Kurumu Yayınları, 2010, s. 25-190.
7. Şora // Kazak Destanları – IV. Kırım`ın Kırk Batırı. Çev. F.Türkmen, M.Ekici. Ankara: Türk Dil Kurumu Yayınları, 2007, s. 668-743.
8. Türkmen F. Tatar Destanı Çora Batır`ın Buryatlar Arasındaki Varyantları Üzerine (Altay Kavimleri Arasındaki Kültürel Etkileşim Üzerine Bir Deneme) // Türk Dünyası Dil ve Edebiyat Dergisi, 2004, Sayı: 18, s.103-109.
9. Атласи Һ. Себер тарихы. Сөенбикә. Казан ханлыгы. Казан: Татар. кит. нәшр., 1993. 446 б.
10. Әхмәтҗанов М. Җиде бабаңны беләсеңме? // Ялкын. 1994, №1, б. 3-4.
11. Әхмәтҗанов М. Татар шәҗәрәләре (Беренче кисәк). Казан: Татарстан китап нәшрияты. 1995, 128 б.
12. Ибраһимова Л.Х. Төрки халыклар иҗатында «Чура батыр» дастаны. Казан: Фикир, 2002, 185 с.
13. Исхаков Д.М. Чура батыр кем ул? // Идел, 1994, №9, б. 17-19.
14. Исхаков Д.М. Исторические очерки. Казань: Изд-во «Фэн» АН РТ. 2009, 164 с.
15. Исхаков Д.М. От средневековых татар к татарам нового времени (этнологический взгляд на историю Волго-Уральских татар XV-XVII вв. Казань: Издательство «Мастер Лайн», 1998, 276 с.
16. Казанская история // Библиотека литературы Древней Руси. Т. 10, ч. XVI, СПб.: Наука, 2000, б. 252-510.
17. Мухаметзянова Л.Х. Чура Нарыков – политический деятель Казанского ханства // Золотоордынское обозрение. 2022, 10 (1), с. 212-228.
18. Орозова Г. Мундук зарлык, Кыз Дарыйка, Нарыкбай. Ел адабийаты. Т.11, Бишкек: Шам басмасы, 2002.
19. Полное собранıе русскихъ лѣтописей. Летописец начала царства царя и великого князя Ивана Васильевича. Том XXIX. Александро-Невская летопись, Лебедевская летопись. Москва: Наука,1965, 391 с.
20. Полное собранıе русскихъ лѣтописей. Т.13, Ч.I, VIII летописный сборникъ, именуемый Патрıаршею или Никоновскою лѣтописью. СПб.: Изданное по высочайшему повелѣнıю Императорскою Археографическою Коммиссıею, 1904, 302 с.
21. Халиков А.Х. Болгар-татар чыгышлы 500 рус фамилиясе. – Казан: Изд-во «Казань»,1992, 192 б.
22. Худяков М. Очерки по истории Казанского ханства. Репринтное воспроизведение издания 1923 г. Казань: Фонд ТЯК, 1990, 310 с.
23. Черкесова А.А. Музыка устной традиции ногайцев Северного Кавказа: этнический и территориальный аспекты. Диссертация на соискание ученой степени кандидата искусствоведения. Ростов-на-Дону, 2018, 302 с.

24. Чура батыр. Татар халык дастаны // Идель, 1993, №6, б. 10-22
25. Шора батыр // Дала фольклорының антологиясы. Батырлар жыры. 10 томдық, 2 том. / Томды құрастырып, баспаға дайындағандар С.И.Сәкен, Н.Ә.Сәрсек. Алматы: Brand Book. 2019, б. 297-323.
26. Жилинский сельский совет. (http: // kostromka.ru/belorukov/derevni/soligalich/395.php . 01.02.2025)

***Резюме***

***Кумру Шахрияр***

***«Шора Батыр» в эпическом сериале о сороке батыров: эпичность и историчность***

Эпический цикл о сорока батырах является традиционным для казахской литературной среды и состоит из четырех различных серий: «Аншыбай батыр и его потомки», «Карадон батыр и его потомки», «Кыдырбай и его потомки», «Джыры о разных батырах». Эпос «Шора батыр» входит в цикл «Карадон батыр и его потомки», вторую из трех частей эпического цикла о Сороке батырах. В целом все эпосы, входящие в цикл, посвящены героям, происходящим из династии Мангытов и во многих случаях являющимся историческими личностями.

Эпический цикл о «Сорока батырах» представляет собой поэтическое выражение истории Золотой Орды и ее преемницы – Ногайской Орды. В эту серию вошли почти все героические эпосы Золотой Орды и Ногайской Орды. Основным звеном в цикле «Карадон батыр и его потомки» является эпос «Шора батыр», в других циклах, связанный с Сорок батыром – «Аншыбай батыр и его потомки» – это «Едигей», а в «Кыдырбай и его потомки» – это «Кобланды батыр». Все три названных эпосах героя являются прототипами исторических личностей. Их деятельность на исторической сцене подробно отражена в средневековых хрониках, рукописях того времени и других письменных источниках. Основное содержание цикла – свобода ногайского народа, благополучие народа, защита себя и своей родины от нападений калмыков и кызылбашского войска, которые часто нападали на их земле.

В циклизация о Сорока батырах входит в общей сложности тридцать шесть эпосов. Это значение может быть уменьшено в зависимости от сказителя. Десять эпических произведений составляют второй цикл этой циклизации эпосов о Сороке батырах, в который входит и «Шора батыр».

Как уже было сказано выше, основным сюжетом второго из трех звеньев серии является эпос «Шора батыр». При анализе с точки зрения историчности и эпичности было обнаружено, что обе личности, представленные нам письменными источниками и эпическим текстом, являются прототипами друг друга.

**Ключевые слова:** *циклизация, Сорок батыров, эпос, Шора Батыр, эпический текст, генеалогия*

***Summary***

***Qumru Shahriyar***

***“Shora Batyr” in the Epic Series about the Forty Batyrs: Epicity and Historicality***

The epic series of Forty batirs is traditional for the Kazakh literary environment and consists of four different series: “Anshibay batir and his descendants”, “Karadon batir and his descendants”, “Kydirbay and his descendants”, “Episodes about various batirs”. The epic “Shora batir” is included in the series “Karadon batir and his descendants”, which is the second of three links of the epic series about Forty batirs. As a whole, all the epics included in the series are dedicated to heroes who came from the Mangyt lineage and in many cases were historical figures.

The epic series about the Forty batirs is a poetic expression of the story about the Golden Horde and its successor, the Nogai Horde. This series includes almost all the heroic epics of the Golden Horde and the Nogai Horde. If the main link in the series “Karadon batir and his descendants” is the epic “Shora batir”, then in other series related to the Forty batirs – “Anshibay batir and his descendants” it is “Edigey”, and in “Kydirbay and his descendants” it is “Koblandy batir”. All three heroes of the epics mentioned are prototypes of historical figures. Their activities on the stage of history are reflected in detail in medieval chronicles, manuscripts of their time and other written sources. The main content of the series is the freedom of the Nogai people, the well-being of the people, their defense of themselves and their homeland from the attacks of the

Kalmyks and the army of the Qizilbash, who often attacked them.

The epic series about the Forty batir includes a total of thirty-six epics. This can be reduced depending on the narrator. The second cycle of the epic series about the Forty batir, which includes "Shora batir", consists of ten epic works.

As mentioned above, the main plot of the second of the three links in the series is the epic "Shora batir". When analyzed in terms of historicity and epicness, it was revealed that both characters presented to us by written sources and the epic text are prototypes of each other.

**Key words:** *series, Forty Batyr, epic, Shora Batyr, epic text, genealogy*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Rzayev Seyfəddin Gülverdi oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.